**Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda nəzərdə tutulan tədbirlərin icrası barədə Əmlak Məsələləri Dövlət Komitəsinin illik**

# Hesabatı

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Komitə üzrə imzalanmış 2014-cü il 07 yanvar tarixli 02 nömrəli əmrlə "Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 05 sentyabr tarixli, 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsinin 2014-cü il üçün İş Planı" təsdiq edilmişdir.

Həmin İş Planında "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın Komitə tərəfindən icrası nəzərdə tutulmuş bəndlərin realizəsi məqsədilə konkret tədbirlər göstərilmiş, Komitənin aidiyyəti bölmə və qurumları üzrə görüləcək işlər və nəticə indikatorları müəyyən edilmişdir.

İş Planı Komitənin 14.01.2014-cü il tarixli 140120800190 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyasına təqdim edilmişdir.

## 1. "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı":

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **1.1-ci bəndinin** icrasının təmin edilməsi məqsədi ilə Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin 07 dekabr 2012-ci il tarixli 227 nömrəli əmri ilə

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində informasiya azadlığı üzrə məsul şəxs müəyyən edilmişdir. Əmlak Məsələləri Dövlət Komitəsi Kollegiyasının 13 yanvar 2014-cü il tarixli 02 nömrəli Qərarı ilə "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat qaydaları" təsdiq edilmiş və Komitənin 14.01.2014-cü il tarixli 140120800184 nömrəli məktubu ilə Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilmiş və 28.01.2014-cü il tarixində qeyd edilən reyestrə daxil edilmişdir.

İctimaiyyətin məlumatlandırılması üçün "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində informasiya azadlığı ilə bağlı daxili icraat qaydaları"nın Komitənin rəsmi internet səhifəsində yerləşdirilməsi təmin edilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **1.2-ci bəndinə** uyğun olaraq informasiya azadlığının təmin edilməsi məqsədi ilə Komitənin struktur bölmələrinin, strukturuna daxil olan və tabeliyindəki qurumlarının məsul şəxsləri üçün 05 dekabr 2014-cü il tarixində "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində informasiya azadlığının təmin olunması" mövzusunda təlim keçirilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.1-ci bəndinə** uyğun olaraq Komitənin "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanununun 33-cü maddəsinin tələbləri əsasında rəsmi internet səhifəsi fəaliyyət göstərir. Komitənin internet səhifəsi müntəzəm olaraq texniki, funksional və məzmun baxımından təkmilləşdirilir, burada informasiya əldə etmək üçün lazımi bölmələr fəaliyyət göstərir və müntəzəm olaraq yeniləşdirilmiş məlumatlarla təmin edilir. İnternet səhifəsində dövlət əmlakının idarə edilməsi, icarəyə verilməsi, özəlləşdirilməsi, daşınmaz əmlaka dair hüquqların dövlət qeydiyyatı sahəsində qanunvericilik bazası yerləşdirilmişdir. Eyni zamanda daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmət haqları və rüsumlarla bağlı informasiyalar səhifədə yerləşdirilmişdir. İnternet səhifəsində yerləşdirilmiş Komitənin fəaliyyətini əks etdirən müxtəlif səpgili informasiyalar və mətbuat üçün açıqlamalar, o cümlədən keçirilmiş və

nəzərdə tutulmuş hərraclar, müsabiqə və tenderlər barədə elanlar, özəlləşdirmənin statistikası, işə qəbul qaydaları, vakansiyalar, vəzifəli şəxslərin qəbul günləri barədə informasiyalar müntəzəm olaraq yenilənir.

İnternet səhifəsində xidmət vasitəsi kimi, dövlət əmlakından icarə əsasında istifadə edən fiziki və hüquqi şəxslər üçün icarə müqaviləsinə görə borclarının öyrənilməsi imkanı, dövlət əmlakının qorunub saxlanılması və ondan istifadə vəziyyəti haqqında xüsusi hesabat forması blanklarının çapı və təqdim edilməsi imkanları yaradılmışdır. Həmçinin internet səhifəsində elektron xidmətlər bölməsi yaradılıb. Buradan e-emdk.gov.az portalına keçid təmin edilib. Bu bölmələrdə elektron xidmətlərin göstərilməsi qaydaları, qeydiyyat üçün müraciət (ərizə) formaları və tələb olunan sənədlərin siyahısı, qeydiyyat üçün tələb olunan dövlət rüsumu və xidmət haqları – bütövlükdə elektron xidmətlərdən istifadə etmək üçün tələb olunan məlumatlar yerləşdirilib.

Eyni zamanda Komitənin yanında fəaliyyət göstərən Hərracların Təşkili üzrə Auksion Mərkəzinin auksion.gov.az internet səhifəsi vasitəsi ilə dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərrac qaydaları, bu sahədəki qanunvericilik, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərraclar və onların nəticələri, özəlləşdirməyə çıxarılan müəssisələr barədə məlumatlarla tanış olmaq mümkündür.

Həmçinin Komitənin tabeliyində olan Daşınmaz Əmlakın Kadastrı və Texniki İnventarlaşdırma Mərkəzinin kadastr.az internet səhifəsi də fəaliyyət göstərir. Burada daşınmaz əmlakın vahid dövlət kadastrı sahəsində mövcud qanunvericilik aktları, bu sahədə görülən tədbirlər, layihələr və yeniliklər barədə zəruri məlumatların mütəmadi, yenilənmiş əsaslarla yerləşdirilməsi təmin edilir.

Bununla yanaşı Əmlak Məsələləri Dövlət Komitəsinin həyata keçirdiyi ictimai təqdimatlar, geniş tərkibli beynəlxalq tədbirlər və s. Komitənin internet səhifəsinin "Xəbərlər" bölməsində daim yenilənərək operativ şəkildə təqdim edilir. İnformasiya üzrə məsul şəxsin müəyyən etdiyi işçi tərəfindən press-relizlər hazırlanır və Komitənin internet səhifələrinin yenilənməsi mütəmadi olaraq yoxlanılır.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.2-ci bəndinə** uyğun olaraq Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət

Komitəsi tərəfindən 2013-cü ildə görülmüş işlərə dair Hesabat Komitənin rəsmi internet səhifəsində yerləşdirilmişdir. 2014-cü il üçün də müvafiq hesabatın internet səhifəsində yerləşdirilməsi nəzərdə tutulmuşdur.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.3-cü bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 2014-cü il 15 yanvar tarixində Lənkəranda, 14 fevralda Mingəçevirdə, 18 apreldə Şirvanda, 6 iyunda Şamaxıda, 10 iyulda Bərdədə, 08 avqustda Xaçmazda, 01 sentyabrda Beyləqanda, 17 oktyabrda Abşeronda və dekabrda Sumqayıtda keçirilmiş daşınmaz əmlakın qeydiyyatı sahəsində hüquqi maarifləndirməyə dair seminar çərçivəsində mətbuat brifinqi həyata keçirilmişdir.

Eyni zamanda Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 19 fevral 2014-cü il tarixində "Daşınmaz əmlaklar haqqında Milli Məkan Məlumat Bazasının İctimai Təqdimatı" keçirilmişdir. İctimai Təqdimatda müxtəlif dövlət qurumlarının, həmçinin Komitənin əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar və ictimai birliklərin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişdir. Tədbir çərçivəsində Komitə sədrinin mətbuat və televiziya nümayəndələrinə müsahibəsi olmuşdur.

2014-cü ilin mart ayında daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmətlərin vətəndaşlara səyyar şəkildə yerlərdə göstərilməsi məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən müvafiq ictimai təqdimat keçirilmişdir. Tədbirdə daşınmaz əmlakın qeydiyyatı ilə bağlı yenilik – Komitə tərəfindən vətəndaşlara, əmlak sahiblərinə, xüsusi təbəqədən olan insanlara (həmçinin əlillər, ahıllar, tənha yaşayanlar, sağlamlıq imkanları məhdud və yaşayış yeri uzaqda yerləşən insanlara) ünvanlarda qeydiyyat xidmətlərinin göstərilməsi və belə səyyar xidmətlərin respublikanın bütün regionlarında təşkili barədə geniş məlumat verilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.4-cü bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının hazırlanması üzərində işlər davam etdirilir. Daşınmaz əmlakın qeydiyyatı, kadastrı və ünvan reyestri sahəsində qanunvericiliyi əks etdirən (son dəyişikliklər və əlavələrlə)

yeni hüquqi bələdçi və toplu çapdan çıxmışdır. Hüquqi bələdçi ilə bağlı Komitənin rəsmi internet səhifəsində məlumat verilmiş və bələdçinin elektron versiyası rəsmi portalda istifadəçilərə təqdim edilmişdir. Bundan əlavə qeyd olunan hüquqi bələdçi portalda yaradılmış hüquqi maarifləndirmə linkində yerləşdirilmişdir.

Komitənin fəaliyyəti ilə bağlı qanunvericiliyin vətəndaşlara izahı və təşviqi məqsədilə hər həftə "Mülkiyyət" qəzetində və aylıq dərc olunan "Daşınmaz Əmlak" jurnalında maarifləndirici izahlar və sual-cavablar nəşr olunur. Həmçinin Komitənin rəsmi internet səhifəsində "Hüquqi maarifləndirmə" linki yaradılaraq maarifləndirici materialların yerləşdirilməsi təmin edilmişdir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.5-ci bəndinə** uyğun olaraq Komitənin www.emdk.gov.az, Hərracların Təşkili üzrə Auksion Mərkəzinin www.auksion.gov.az, Daşınmaz Əmlakın Kadastrı və Texniki İnventarlaşdırma Mərkəzinin www.kadastr.az internet səhifələri fəaliyyət göstərir.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **4.1-ci bəndinə** uyğun olaraq 2014-cü ildə Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə həyata keçirilməsi nəzərdə tutulan yeni elektron xidmət növləri üzrə inzibati reqlamentlərin layihələri "Elektron hökumət" portalında yerləşdirilərək müzakirəyə çıxarılmışdır.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **4.3-cü bəndinə** uyğun olaraq Komitənin rəsmi internet səhifəsində "Vətəndaşlar üçün" və "İctimai məlumatlandırma" bölmələri fəaliyyət göstərir. Burada "Qəbul günləri", "Sual-cavab", "Məktub göndər", "Maarifləndirmə" və "Xəbərlər" kimi alt bölmələri vasitəsilə vətəndaşlarla interaktiv sual-cavab aparmaq, vətəndaşlar tərəfindən göndərilən məktubları qəbul edərək cavablandırmaq mümkündür. Eyni zamanda Komitənin vəzifəli şəxsləri tərəfindən vətəndaşların qəbul günləri haqqında məlumatlar hər ay mütəmadi olaraq yenilənir. Bundan əlavə komitənin facebook sosial şəbəkəsində səhifəsi aktiv edilmiş və burada vətəndaşların sual-cavab şəklində iştirakını təmin edən internet forum elan edilmişdir.

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **4.4-cü bəndinə** uyğun olaraq 2014-cü ilin iyul, avqust, sentyabr və oktyabr aylarında regionlarda “Açıq qapı” vətəndaş forumları keçirilmişdir. Keçirilmiş forumlarda vətəndaşların, habelə kütləvi informasiya vasitələri nümayəndələrinin daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müxtəlif sualları cavablandırılmış, qeydiyyatla bağlı prosedurlar əyani şəkildə nümayiş etdirilmişdir.

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **5.2-ci bəndinə** uyğun olaraq Komitənin fəaliyyət istiqamətləri üzrə göstərdiyi bütün elektron xidmətlərin vahid bir internet resursunda mərkəzləşməsi və vətəndaşların bu elektron xidmətlərdən rahat istifadə etməsini təmin etmək məqsədilə www.e-emdk.gov.az “Elektron xidmətlər portalı” fəaliyyət göstərir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 16 may 2014-cü il tarixində aidiyyəti dövlət qurumlarının, əməkdaşlıq edilən təşkilatların, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirakı ilə “Daşınmaz əmlakla bağlı elektron xidmətlər yeni mərhələdə”, 12 sentyabr 2014-cü il tarixdə “Dövlət əmlakının idarə edilməsi və hərracların təşkili: müasir yanaşmalar və elektron xidmətlər” mövzusunda İctimai Təqdimatlar keçirilmişdir. Təqdimatlarda Komitənin fəaliyyət istiqamətləri üzrə həyata keçirdiyi elektron xidmətlərdən istifadə qaydaları və prosedurları barədə ətraflı məlumat verilmişdir.

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **5.4-cü bəndinə** uyğun olaraq Komitənin elektron xidmətlər portalında (www.e-emdk.gov.az) daşınmaz əmlakın qeydiyyatı ilə bağlı xidmət haqqının elektron formada ödənilməsi və dövlət əmlakının icarəyə verilməsi müqavilələri üzrə icarə haqqı borcu barədə məlumatın verilməsi təmin edilmişdir.

“Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **5.5-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən elektron xidmətlərdən istifadənin rahatlığı məqsədilə ictimai maarifləndirmə işləri həyata keçirilmişdir. Belə ki elektron xidmətlərlə bağlı izahedici video-çarxlar hazırlanaraq Komitənin rəsmi internet səhifəsində yerləşdirilmiş, həmin video-çarxların televiziya kanallarında yayımı təmin edilmişdir. Elektron xidmətlərlə bağlı Komitə tərəfindən

müxtəlif ictimai tədbirlər təşkil edilmiş, vətəndaşların və mətbuat nümayəndələrinin iştirakı ilə geniş ictimai təqdimatlar keçirilmişdir. Bu istiqamətdə mətbuatda müntəzəm məlumatlar dərc edilmişdir. Komitənin rəsmi nəşrləri olan "Daşınmaz Əmlak" jurnalı və "Mülkiyyət" qəzetində elektron xidmətlərlə bağlı geniş maarifləndirici materiallar nəşr olunmuşdur.

Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **9.2-ci bəndinə** uyğun olaraq açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması istiqamətində "daşınmaz əmlak" bülletenində, "Mülkiyyət" qəzetində Komitənin fəaliyyət istiqamətləri üzrə maarifləndirici məlumatların, məqalələrin dərci təmin edilmişdir. Eyni zamanda 2014-cü ildə daşınmaz əmlakın qeydiyyatı və kadastrı sahəsində hüquqi maarifləndirmə bələdçisi nəşr edilmişdir.

**2. "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"**

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **2.5-ci bəndinə** uyğun olaraq Komitə sədri tərəfindən vətəndaşların birbaşa və səyyar qəbulu təşkil olunur.

Belə ki vətəndaşların birbaşa qəbulu ayda bir dəfə Komitənin inzibati binasında həyata keçirilir. Eyni zamanda mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Komitə sədri tərəfindən 2014-cü il yanvar ayının 10-da Lənkəran, fevral ayının 25-də Ucar, mart ayının 11-də Mingəçevir, aprel ayının 11-də Tovuz, may ayının 23-də Quba, iyun ayının 20-də Qəbələ, iyul ayının 4-də Astara, avqust ayının 22-də Qax, sentyabr ayının 26-da Şabran, oktyabr ayının 24-də Biləsuvar, noyabr ayının 21-də Xırdalan və dekabr ayının 19-da Salyan şəhərlərində vətəndaşların qəbulu keçirilmişdir.

Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqaməti üzrə vətəndaşların qəbulu zamanı daxil olmuş müraciətlərə baxılması və müsbət həll edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Bu barədə Komitənin müvafiq qurumlarına və ərazi bölmələrinə konkret tapşırıqlar verilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **2.6-cı bəndinə** uyğun olaraq vətəndaşların ərizə və şikayətlərinin qəbulu, qeydiyyatı və rəsmi cavablandırılması “Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında” Azərbaycan Respublikası Qanununa əsasən Dünya Bankının Daşınmaz Əmlakın Qeydiyyatı Layihəsi çərçivəsində hazırlanmış Avtomatlaşdırılmış Sənəd Dövriyyəsi İnformasiya Sistemi (ASDİS) vasitəsi ilə aparılır. Elektron poçt vasitəsilə ərizə və şikayətlərin qəbulu işinin təşkili məqsədi ilə Komitənin office@emdk.gov.az elektron poçt ünvanına daxil olmuş müraciətlər qeydiyyata alınaraq cavablandırmaq üçün aidiyyəti üzrə struktur bölmələrə və qurumlara göndərilir. Komitənin elektron poçt ünvanına hüquqların qeydiyyatı ilə bağlı daxil olan müraciətlər həmin gün, xüsusi araşdırma tələb edən müraciətlər isə üç gün müddətində cavablandırılır. Ümumilikdə 2014-cü il ərzində 337 elektron müraciət daxil olmuş və müvafiq qaydada cavablandırılmışdır. Bundan əlavə Komitə üzrə fəaliyyət göstərən 193 saylı qaynar xəttə daxil olan hər bir müraciət dərhal cavablandırılır, araşdırılma tələb olunan müraciətlər isə qeydiyyata alınaraq aidiyyəti üzrə göndərilir. 2014-cü ilin yanvar-dekabr aylarında vətəndaşlar tərəfindən 193 nömrəli qaynar xəttə 632 müraciət daxil olmuş, müraciətlərin 554-ü sorğu, 78-i şikayət xarakterli olmuşdur.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **8.1-ci bəndinə** uyğun olaraq “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 28.2-ci maddəsinə əsasən Əmlak Məsələləri Dövlət Komitəsinin Aparatı, ərazi şöbələri, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Hərracların Təşkili üzrə Auksion Mərkəzi və Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti üzrə inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələr və onların tutulması yolları barədə məlumatlar ayda bir dəfədən az olmayaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilir.

2014-cü il ərzində Komitədə müvafiq inzibati vəzifələrə qəbulla bağlı Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya ilə əlaqəli işlər davam etdirilmişdir. Hesabat dövründə “Dövlət qulluğu haqqında”

Azərbaycan Respublikasının Qanununun 29-cu maddəsinə əsasən Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsində inzibati vəzifələrin beşinci-yeddinci təsnifatlarına uyğun olan vakant dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə Komitə tərəfindən 1 daxili müsahibə, Komissiya tərəfindən 1 ümumi müsahibə və 2 müsabiqə elan edilmişdir. 2014-cü ilin 23-25 sentyabr tarixlərində keçirilmiş daxili müsahibədə 20 namizəd iştirak etmiş, həmin namizədlərdən 16 nəfəri müsahibədən müvəffəqiyyətlə keçmiş və müvafiq vəzifələrə təyin edilmişlər.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən elan edilmiş müsabiqələrdən müvəffəqiyyətlə keçmiş namizədlər müvafiq vakant vəzifələrə təyin olunmuşdur.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **8.3-cü bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müvafiq əmri ilə Əmlak Məsələləri Dövlət Komitəsinin işçiləri üçün 2014-cü il ərzində keçiriləcək təlim seminarlarının Plan-qrafiki təsdiq edilmişdir. Qeyd olunan Plan-qrafikdə maraqların toqquşmasının qarşısının alınması, informasiya azadlığının təmin edilməsi, dövlət qulluqçularının etik davranış qaydaları və digər mövzularda təlimlərin keçirilməsi nəzərdə tutulmuş və müəyyən edilmiş müddətlərdə həmin təlimlərin keçirilməsi təmin edilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **8.5-ci bəndinə** uyğun olaraq dövlət qulluğunda rotasiya sisteminin tətbiqi ilə bağlı məsələləri tənzimləyən "Dövlət Qulluğu Məcəlləsi"nin layihəsinə Komitə tərəfindən müsbət rəy verilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **9.2-ci və 10.1-ci** bəndlərinə uyğun olaraq Komitədə çalışan dövlət qulluqçuları üçün "Maraqlar toqquşmasının qarşısının alınması" və "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin müvafiq əmri ilə təsdiq edilmiş Əmlak Məsələləri Dövlət Komitəsinin işçiləri üçün 2014-cü il ərzində keçiriləcək təlim seminarlarının Plan-qrafikində nəzərdə tutulmuş müddətlərdə təlimlərin keçirilməsi təmin edilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **10.2-ci bəndinə** uyğun olaraq etik davranış məsələləri üzrə 2014-cü ildə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən görülmüş tədbirlər barədə hesabat Komitənin 30 dekabr 2014-cü il tarixli 140121110486 nömrəli məktubu ilə Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyaya təqdim edilmiş və rəsmi internet səhifəsində yerləşdirilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **10.3-cü bəndinə** uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən hazırlanmış özündə etik davranış qaydalarının pozulması ilə bağlı daxil olan müraciətlərə baxılması və araşdırılması qaydasını da tənzimləyən “Dövlət Qulluğu Məcəlləsi”nin layihəsinə Komitənin müvafiq məktubu ilə müsbət rəy bildirilmişdir. Qeyd olunan layihə qəbul edildikdən sonra etik davranış qaydalarının pozulması ilə bağlı daxil olan müraciətlərə müvafiq qaydada baxılması və araşdırılması təmin ediləcəkdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **14.3-cü bəndinə** uyğun olaraq satınalmaların qeydiyyatı aparılan zaman tender iştirakçıları haqqında bütün tələb olunan məlumatlar əks etdirildiyindən pozuntuya yol vermiş iştirakçılar barədə proqramda xüsusi qeydlər aparılmaqla nəzarəti həyata keçirtmək mümkündür. Eyni zamanda Satınalmalar üzrə Dövlət Agentliyinin internet saytında “etibarsız malgöndərənlərin siyahısı” bölməsi dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə və satınalma müqavilələrinin icrasına qanun pozuntularına yol vermiş hüquqi və fiziki şəxslərin gələcəkdə dövlət satınalmalarına iştirakını nəzərdə keçirməyə imkan verir. Azərbaycan Respublikasında dövlət vəsaitləri hesabına malların (işlərin və xidmətlərin) satın alınması sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı olaraq Satınalmalar üzrə Dövlət Agentliyi tərəfindən müvafiq mexanizmlər barədə təkliflər verildiyi halda onlara münasibət bildirilməsi təmin ediləcəkdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **14.4-cü bəndinə** uyğun olaraq dövlət satınalmaları üzrə keçirilən müsabiqələrdə iştirak edən iddiaçıların hüquqları mövcud qanunvericiliyə uyğun

qaydada qorunur. İddiaçılar hüquqlarının həyata keçirilməsi və pozulması ilə bağlı müvafiq olaraq ərizə və şikayətlər daxil olacağı təqdirdə onlara təxirə salınmadan baxılması, müvafiq tədbirlər görülməsinə yönəlmiş zəruri addımların atılması təmin ediləcəkdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **14.5-ci bəndinə** uyğun olaraq Dövlət satınalmaları keçirilən zaman korrupsiya halları aşkar edilərsə bu barədə hüquq mühafizə orqanlarına müvafiq məlumatlar təqdim olunacaqdır.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **14.6-cı bəndinə** uyğun olaraq Satınalmalar üzrə Dövlət Agentliyi ilə müzakirələr aparılmış və belə nəticəyə gəlinmişdir ki, dövlət satınalmaları zamanı keçiriləcək hər satınalma üzrə ayrıca fərdi olaraq ehtimal olunan qiymət müəyyənləşdirildiyi üçün vahid metodologiyanın hazırlanması mümkün deyildir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **14.7-ci bəndinə** uyğun olaraq Komitənin 2014-cü il üçün satınalmalar planı Satınalmalar üzrə Dövlət Agentliyinin internet səhifəsində yerləşdirilmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **15.3-cü bəndinə** uyğun olaraq daşınmaz əmlak obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin notariat qaydasında təsdiqlənməsi üçün daşınmaz əmlak obyektinə sərəncam verənin bu hüquqa malik olmasının yoxlanılması məqsədi ilə daşınmaz əmlakın təsviri, bu əmlak üzərində dövlət reyestrində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın notarius tərəfindən real vaxt rejimində əldə edilməsi, eləcə də notariat qaydasında təsdiqlənmiş müqavilənin elektron formada dərhal dövlət reyestrinə ötürülməsi məqsədilə elektron informasiya sistemləri vasitəsi ilə məlumatların mübadiləsi təmin olunur. Bu zaman qarşılıqlı əməkdaşlığın və arayışın əldə edilməsinə görə ödənişlərin həyata keçirilməsi qaydası, həmçinin elektron informasiya sistemləri vasitəsi ilə məlumatların mübadiləsinin təhlükəsizliyinə dair tələblər “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi arasında elektron informasiya sistemləri vasitəsi ilə məlumatların mübadiləsinin

təhlükəsizliyinə dair tələblər, qarşılıqlı əməkdaşlıq və arayışın əldə edilməsinə görə ödənişlərin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Əmlak Məsələləri Dövlət Komitəsi Kollegiyasının 14 fevral 2014-cü il tarixli 03 nömrəli Qərarı ilə müəyyən edilmişdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **15.4-cü bəndinə** uyğun olaraq daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı müddətləri və prosedurlarının azaldılması, ərizəçilərin vaxt itkisinin qarşısının alınması, ipoteka qoyulan daşınmaz əmlakla bağlı məlumatların əldə edilməsi üçün banklar və kredit təşkilatlarının informasiya sistemləri ilə daşınmaz əmlakın dövlət reyestri arasında əlaqənin yaradılması məqsədilə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanun layihələri aidiyyəti dövlət orqanları ilə razılaşdırılaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Eyni zamanda daşınmaz əmlakın dövlət reyestri məlumatlarının mötəbərliyinin təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 03 fevral 2014-cü il tarixli 101 nömrəli Fərmanına uyğun olaraq "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş daşınmaz əmlak üzərində hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri əsasında yaranmış hüquqlara dair məlumatların daşınmaz əmlakın dövlət reyestrinin elektron məlumat bazasına daxil edilməsi istiqamətində işlər davam etdirilir. Bununla yanaşı Azərbaycan Respublikasının Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən torpaq sahələri üzərində əvvəl yaranmış hüquqlara dair tam olmayan və informasiyanın mötəbərliyi baxımından yararsız olan sənəd və məlumatların təqdim edilməsi daşınmaz əmlakın dövlət reyestri məlumatlarının mötəbərliyinin təmin edilməsində ciddi problemlər yaradır.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **18.2-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi yanında

Hərracların Təşkili üzrə Auksion Mərkəzi tərəfindən dövlət əmlakının hərraclarda satışına dair sifarişlərin qəbulu üzrə təşkil edilən elektron xidmətlər vasitəsilə vətəndaşların real vaxt rejimində hərraclarda qeydiyyatdan keçməsi təmin edilir. Hesabat dövründə 244 elektron sifariş üzrə vətəndaşlar real vaxt rejimində hərraclarda qeydiyyatdan keçmişdir.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **23.1-ci bəndinə** uyğun olaraq 2014-cü il ərzində dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqi ilə bağlı təlimlər keçirilmiş, müəssisələrdə korporativ idarəetmə prinsiplərinin tətbiqi və dövlətə məxsus səhmlərin idarə edilməsi sahəsində mövcud vəziyyətin qiymətləndirilməsi, zəruri təlimatların verilməsi məqsədilə Komitənin səlahiyyətli nümayəndələri və dövlət müəssisələrinin nümayəndələri arasında yerlərdə görüşlər təşkil edilmişdir. Eyni zamanda İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən dövlət müəssisələrində korporativ idarəetmə prinsiplərinin tətbiqi ilə bağlı keçiriləcək müvafiq təlimlərdə Komitənin nümayəndəsinin iştirakı nəzərdə tutulmuşdur.

“Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nın **26.1-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti BMT Avropa İqtisadi Komissiyasının Mənzil Təsərrüfatı və Daşınmaz Əmlakın İdarə Edilməsi Komitəsinin Cenevrə şəhərində keçirilmiş iclasında, habelə BMT-yə üzv dövlətlərin əmlak idarəçiliyi nazirlərinin görüşündə, Geoməkan Dünya Forumunda, eləcə də forum çərçivəsində təşkil edilmiş “İntellektual şəhərlər üçün daşınmaz əmlak informasiya sistemləri” beynəlxalq konfransında iştirak etmişdir. Sadalanan tədbirlərdə korrupsiyanın səviyyəsinin aşağı salınmasına təsir göstərən amillərdən olan – əmlakın qeydiyyatı zamanı tələb olunan sənədlərin minimuma endirilməsi və şəffaflıq məsələləri müzakirə predmeti olmuşdur.

Dünya Bankı ilə əməkdaşlıq çərçivəsində Dünya Bankının analitik məlumatı olan “Doing Business 2015” hesabatının hazırlanması məqsədi ilə Dünya Bankından daxil olmuş sorğu vərəqələri cavablandırılmış, ekspertlərlə Komitədə görüş keçirilmiş, əmlakın qeydiyyatı ilə bağlı bir sıra məsələlər onlarla aydınlaşdırılmışdır. Görülmüş

işlər nəticəsində Azərbaycan Respublikası daşınmaz əmlakın qeydiyyatı göstəricisi üzrə hesabatda irəliləyərək 10-cu yerdə qərarlaşmışdır.

Beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində BMT Avropa İqtisadi Komissiyasının Daşınmaz Əmlak İdarəçiliyi üzrə İşçi Qrupunun sədri olan Əmlak Məsələləri Dövlət Komitəsinin nümayəndəsi Birləşmiş Ərəb Əmirlikləri, İrlandiya, İtaliya, İsveçrə, Özbəkistan, Danimarka və Yunanıstanda əmlak idarəçiliyi ilə bağlı BMT-nin bir sıra beynəlxalq konfransları, seminarları, işçi müşavirələri və İşçi qrupu Bürosunun iclaslarına sədrlik etmiş, gündəlik məsələlər ətrafında müzakirələr təşkil edərək onları idarə etmiş və təqdimatlarla çıxış etmişdir. Bununla yanaşı, Komitə nümayəndəsi Dünya Bankı ilə BMT Avropa İqtisadi Komissiyasının Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində birgə təşkil etdikləri "Əmlak və Yoxsulluq" beynəlxalq konfransının iki sessiyasına sədrlik etmişdir.

Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv qəbul edilməsi üzrə yaradılmış İşçi Qrupunun fəaliyyəti çərçivəsində zəruri işlərin icrası davam etdirilmişdir. Belə ki Komitənin əməkdaşı İşçi Qrupunun ikitərəfli görüşlərində və 11-ci iclasında iştirak edərək təqdimatlarla çıxış etmiş və ÜTT-yə üzv dövlətləri maraqlandıran sualları cavablandırmışdır. İclasdan sonra Amerika Birləşmiş Ştatları tərəfindən Azərbaycan tərəfinə ünvanlanmış suallara aidiyyəti üzrə yazılı cavablar hazırlanmışdır.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **26.2-ci bəndinə** uyğun olaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində Azərbaycan Respublikasının 3-cü raund dəyərləndirilməsinə dair suallar toplusu Komitənin 130120802327 nömrəli məktubu ilə cavablandırılmışdır.

Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **27.1-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən cari ildə də Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrasına vətəndaş cəmiyyəti institutlarının cəlbi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi təmin edilmişdir. Belə ki Komitə tərəfindən Fəaliyyət Planında əksini tapmış ictimai

tədbirlərin keçirilməsi zamanı vətəndaş cəmiyyəti institutlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin iştirakı təmin edilmiş, habelə müxtəlif qeyri hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərin keçirilməsi təmin edilmişdir.

24 yanvar 2014-cü il tarixində Əmlak Məsələləri Dövlət Komitəsində "Şəffaflıq Azərbaycan" Korrupsiyaya qarşı İctimai Birliyinin rəhbəri ilə keçirilmiş görüşdə İctimai Birliyin Komitə ilə bağlı hesabatı nəzərdən keçirilmiş və İctimai Birlik tərəfindən Komitənin son 2 ildə fəaliyyətini və Birliyin Komitə ilə bağlı tövsiyələrini əks etdirən hesabat hazırlanmışdır.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **27.2-ci bəndinə** uyğun olaraq Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün tələb olunan maliyyə vəsaitlərinə dair vətəndaş cəmiyyəti institutları tərəfindən əsaslandırıcı sənədlər təqdim ediləcəyi təqdirdə tələb olunan maliyyə vəsaitinin büdcədən ayrılması üçün müvafiq tədbirlər görüləcəkdir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **28.2-ci bəndinə** uyğun olaraq Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqamətləri ilə bağlı, o cümlədən elektron xidmətlərin göstərilməsi, daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı izahedici maarifləndirici çarxlarının hazırlanması və müxtəlif televiziya kanallarında nümayişi təşkil edilir. Müxtəlif televiziya kanallarında və qəzetlərdə Komitənin ayrı-ayrı fəaliyyət istiqamətləri ilə bağlı maarifləndirici verilişlər və dəyirmi masaların, habelə yazıların dərc edilməsi istiqamətində işlər görülür. Bu ilin mart ayının 3-də Aztv telekanalında efirə gedən "Günün nəbzi" verilişi Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyət istiqamətləri üzrə həyata keçirdiyi və gələcəkdə həyata keçirilməsi nəzərdə tutulan elektron xidmətlər, həyata keçirilən hüquqi maarifləndirmə və ictimai agahlıq tədbirləri, məmur-vətəndaş ünsiyyətinin azaldılmasını təmin edən daşınmaz əmlakın qeydiyyatı sahəsində onlayn xidmətlər və digər nailiyyətlərə həsr edilmişdir.

İctimai Televiziyanın "Diqqət Mərkəzinə" verilişində Əmlak Məsələləri Dövlət Komitəsinin bu il istifadəyə verdiyi elektron xidmətlər, o cümlədən dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı keçirilən hərraclarda iştirak üçün sifarişlərin elektron qəbulu xidməti, mobil ofislər, onlayn xidmətlər, şəffaflıq və korrupsiyaya qarşı mübarizə

sahəsində tədbirlərlə bağlı müzakirənin təşkili təmin edilmişdir. Komitənin rəsmi nümayəndələrinin iştirakı ilə keçiriləcək müzakirədə qeyd olunan sahələrdə suallar cavablandırılıb və fikirlər bildirilib.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **28.3-cü bəndinə** uyğun olaraq ictimai etimadın artırılması və sosial məmnunluğun təmin edilməsi məqsədilə Komitəyə daxil olan ərizə və şikayətlər vaxtında və mahiyyəti üzrə araşdırılır, bu barədə müraciət müəlliflərinə əsaslandırılmış qaydada məlumatların verilməsi təmin edilir. Müraciətlərin qəbulu, baxılması və cavablandırılmasında operativliyi və şəffaflığı təmin etmək məqsədi ilə Komitənin elektron poçt ünvanı fəaliyyət göstərir. Eyni zamanda, Komitənin internet səhifəsi vasitəsi ilə birbaşa müraciətlərin və elektron ərizələrin qəbul edilməsi imkanları yaradılmışdır. Vətəndaşlardan bu qaydada daxil olan müraciətlər qeydiyyata alınaraq cavablandırılmaq üçün aidiyyəti struktur bölmələrə və qurumlara çatdırılır.

Komitə rəhbərliyi tərəfindən təsdiq edilmiş və hər ayın əvvəli Komitənin internet səhifəsi və mətbu orqanı olan "Mülkiyyət" qəzetində yerləşdirilmiş cədvəl üzrə Komitənin inzibati binasında vətəndaşların qəbulu keçirilir.

İctimai etimadın yüksəldilməsi ilə bağlı təbliğat işinin təmin olunması məqsədilə Komitənin fəaliyyət istiqamətləri üzrə yeniliklər, görülən tədbirlər və gələcək addımlar barədə ictimaiyyətə müntəzəm məlumat verilir.

"Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın **28.6-cı bəndinə** uyğun olaraq Komitənin internet səhifəsində, "Mülkiyyət" qəzetində və "Daşınmaz əmlak" analitik informasiya bülletenində daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahəsində həyata keçirilən tədbirlər barədə müxtəlif informasiyaların, maarifləndirici məqalələrin dərcinə xüsusi diqqət yetirilir. Eyni zamanda bu ilin yayında özündə daşınmaz əmlakın qeydiyyatı və kadastrı ilə bağlı məsələləri tənzimləyən mövcud normativ hüquqi aktları, o cümlədən bu sahədə hüquqi məsləhətləri, şərhləri, sənəd nümunələrini əks etdirən daşınmaz əmlakın qeydiyyatı və kadastrı sahəsində hüquqi maarifləndirmə bələdçisi nəşr edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2012-ci il tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci

illər üçün Milli Fəaliyyət Planı” və “Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı”nda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi ilə bağlı Əmlak Məsələləri Dövlət Komitəsində müvafiq işlər davam etdirilir. Sözügedən Milli Fəaliyyət Planının icrası ilə bağlı Komitənin növbəti il üçün İş Planı təsdiq edilmişdir.